UOT 94(479.24)

VƏFA ƏLİYEVA
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
"Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi" şöbəsinin dissertantı
vfa.aliyeva85@mail.ru

AĞABALA QULİYEVİN BAKI UNÜYÜTMƏ SƏNAYESİNDƏ FƏALİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/59-65

Məqalədə XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı şəhərində unüyütmə və çəltiktəmizləmə sənayesinin inkişafı kontekstində azərbaycanlı sahibkar Ağabala Quliyevin fəaliyyəti hərtərəfli şəkildə təhlil olunur. Tədqiqat arxiv sənədləri və dövrün statistik mənbələrinə əsaslanaraq Quliyevin sahibkarlıq strategiyalarını və onun sənayedə apardığı modernləşdirmə işlərini əhatə edir. 1896-cı ildə ilk buxarla işləyən dəyirmanı əldə edən Ağabala Quliyev, onu Almaniyadan gətirdiyi avadanlıqlarla təchiz edərək Bakının ən iri qida sənayesi müəssisələrindən birinə çevirmişdir. O, həmçinin də iş rejimlərini nizamlayan daxili qaydalar tətbiq etməklə əmək təşkilatçılığı sahəsində də nümunəvi model yaratmışdır. Sahibkarın müəssisələrində illik məhsuldarlıq sürətlə artmış, işçi sayı 120 nəfərə qədər yüksəlmiş və müəssisə modern sənaye göstəricilərinə cavab verən səviyyəyə çatmışdır. Qeyd edək ki, bu dövrdə milli kapitalın mövqeyi getdikcə güclənir və A.Quliyev həmin yüksəlişin aparıcı fiqurlarından birinə çevrilir. Onun səyləri nəticəsində 1915-ci ildə müəssisələrinin səhmdar cəmiyyətə çevrilməsi milli sahibkarlığın strukturlaşmasında mühüm mərhələ sayılır. Məqalədə həmçinin Quliyevin işgüzar olması, islahahatçı və təşəbbüskar mövqeyi vurğulanır, onun rus, yəhudi və alman mənşəli iri kapital sahibləri ilə rəqabətə qabilliyi diqqətə çatdırılır. Nəzərə alsaq ki, I Dünya müharibəsi illərində belə, istehsal gücünü qorumağı bacaran A.Quliyev yalnız iqtisadi deyil, həm də sosial və mədəni baxımdan mühüm bir fiqura çevrilmişdir. Təqdim olunan məqalə bəhs olunan dövrdə sənaye tariximizin bəzi az öyrənilmiş səhifələrinə və sənayeləşmə proseslərində A.Quliyevin verdiyi töhfələrə aydınlıq gətirir.

Açar sözlər: Ağabala Quliyev, Azərbaycan sahibkarlığı, Bakı unüyütmə sənayesi, çəltiktəmizləmə müəssisələri, dəyirmanlar.

Giriş. Hər bir dövlətin həyatında mühüm rol oynayan unüyütmə XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanın yeyinti sənayesinin aparıcı sahələrindən birinə çevrilmişdi. Xammalın ucuzluğu, məhsulun hazırlanma prosesinin sadə olması səbəbindən gəlirli sahə hesab olunan unüyütmə bəhs olunan dönəmdə sahibkarların diqqətini cəlb edirdi. Şimali Azərbaycanda bu sahənin ən mühüm mərkəzi isə məhz XX əsrin əvvəllərinə doğru Cənubi Qafqazın ən böyük sənaye və ticarət mərkəzlərindən birinə çevrilməyə başlayan Bakı idi. Əhalinin ərzaq məhsullarına tələbatının artması ilə əlaqədar burada yeyinti sənayesinin inkişafı müşahidə olunurdu. XX əsrin əvvəllərindən etibarən şəhərin qida sənayesində unüyütmə və düyü təmizləmə sahələri ön sıralara çıxır.

Bakı unüyütmə sənayesində Ağabala Quliyevin yeri və rolu. Şimali Azərbaycanın bu dövr unüyütmə sənayesindən bəhs edərkən milli burjuaziyanın nümayəndələrindən Ağabala Quliyevin adını xüsusi olaraq qeyd etmək lazımdır. 1885-ci ildə Bakıda ilk buxarla işləyən dəyirmanda işə düzələn Ağabala [1, s.76] fərdi sahibkarlıq fəaliyyətinə başlayır. O, əsası hələ 1889-cu ildə İ.N.Konkin tərəfindən qoyulmuş [9, s.312] dəyirmanı 1896-cı ildə satın alır. Oradakı köhnə avadanlıqları yenisi ilə əvəz edən Ağabala Quliyev Bakı yəhudilərinin birindən sələmlə götürdüyü pulla hətta Almaniyadan belə yeni avadanlıqlar gətizdirir. Bu dəyirman Ağabala Quliyevin qida sənayesində ən iri müəssisələrdən biri hesab olunurdu [7, s.81; 3, s.23; 5; 8, s.167-168]. Onun 1900-cu ilə kimi un üyütmək və düyü təmizləmək üçün istifadə olunan bu dəyirmanı [8, s.167-168] qısa vaxt ərzində təchizatına və istehsal gücünə görə Bakıda yalnız Skobelevlər istisna olmaqla Sadıxovların, Tağıyevin, Qlaz qardaşlarının dəyirmanlarını geridə qoyur [2].

Unüyütmə sahəsinin inkişafı ilk növbədə bu sahə ilə sıx şəkildə bağlı olan taxıl istehsalının vəziyyətindən asılı idi. Tədqiqatçı Ə.Umayevin qeyd etdiyinə görə, XIX əsrin sonu – XX əsrin əvvəllə-

rindən etibarən Şimali Azərbaycanda texniki bitkilər üçün ayrılan torpaq sahələrinin artması səbəbindən taxıl əkilən torpaqların tükənməsi, aqrotexniki vasitələrin zəif tətbiq olunması, torpaqların primitiv şəkildə əkilməsi, təbii fəlakətlər kimi bir sıra müxtəlif səbəblərdən taxıl istehsalı azalmağa başlayır. Məsələn, əgər 1896-cı ildə Şimali Azərbaycanda rekord həddə - 68775874 pud taxıl (buğda, düyü və arpa) əldə olunmuşdusa, ondan sonra istehsal ildən ilə azalmış, yalnız 1914-cü il istisna olmaqla (54369090 pud), taxıl istehsalının həcmi heç vaxt 42,5 milyon puddan yuxarı qalxmamışdı. Bu müddətdə Şimali Azərbaycanın əhalisinin artması taxıla olan ehtiyacların da ildən ilə artmasına gətirib çıxarır ki, bu səbəbdən də XX əsrin əvvəllərindən etibarən hər il Azərbaycana 9-12 milyon pud taxıl, başlıca olaraq isə buğda və buğda unu gətirilirdi [21, s.26-28].

Artıq XX əsrin əvvəllərində Bakıda 8 unüyütmə dəyirmanı qeydə alınmışdı ki, onların istehsal həcmi 2,5-3 milyon rubl təşkil edirdi [8, s.167]. Həmin vaxtlar Bakıda fəaliyyət göstərən 8 unüyütmə müəssisəsindən milli sahibkarlara məxsus olan dörd (Zülfüqarov, Q.Rzayev və H.Z.Tağıyevlə yanaşı) dəyirmandan ən böyüyü Ağabala Quliyevin idi. 1900-cü il üçün onun buxar çarxlı unüyütmə və çəltiktəmizləmə dəyirmanının illik məhsuldarlığı 268250 rubl təşkil edirdi [5]. Artıq 1902-ci ildə Ağabala Quliyevin dəyirmanında 2 buxar qazanı olmaqla 20 nəfər işçi çalışırdı. Həmin il üçün onun üç növbəli iş rejimi olan dəyirmanı 24 saat işləyirdi və müəssisənin illik istehsal gücü 260 min rubla bərabər idi. Quliyevin illik iş günlərinin sayı 300 günə bərabər olan dəyirmanı o zamanlar mövcud müəssisələr arasında ilboyu fəaliyyətdə olan müəssisə hesab olunurdu. Belə ki, həmin ildə Bakı şəhərində fəaliyyət göstərən 8 un üyüdən dəyirmandan yalnız ikisində ildə iş günlərinin sayı 360 günə bərabər idi; başqa sözlə, sadəcə iki müəssisə ilboyu fasiləsiz işləyirdi [16, v.16-16 arxa].

Müqayisə üçün qeyd edək ki, həmin ildə Bakı şəhərində fəaliyyət göstərən dəyirmanlardan Zülfüqarovların bir buxar qazanı olan dəyirmanının illik istehsal gücü 20 min rubl idi. Onun bir növbəli dəyirmanında 12 işçi çalışmaqla, iş saatı 11 saata, illik orta iş müddəti 250 günə bərabər idi. Vasili Lebedevin 10 min rubl istehsal gücünə, 1 buxar qazanına, bir növbəli iş rejiminə, 10 işçiyə malik olan dəyirmanında 11 saatlıq iş rejimi olmaqla, il ərzində 250 gün fəaliyyət göstərirdi. İki buxar qazanına malik olan "Persidskoe tovarişestvo"nun dəyirmanının illik istehsal gücü 260 min rubl təşkil edirdi. Bu şirkətin 25 fəhlənin fasiləsiz 24 saat çalışdığı dəyirmanı 3 növbəli iş rejiminə malik idi. Dəyirmanın il ərzində fəaliyyət göstərdiyi günlərin sayı 300 günə bərabər idi. Səttar Kərimovun dəyirmanının illik istehsal gücü 10 min rubla bərabər olmaqla, 2 buxar qazanına, bir növbədə işləyən 14 işçiyə malik idi. Dəyirman ildə 250 gün işləyirdi. Skobelev qardaşlarının 280 min rubl istehsal gücünə, 2 buxar qazanına malik dəyirmanında iki növbədə 35 fəhlə çalışırdı. Gün ərzində fasiləsiz olaraq 24 saat işləyən dəyirmanda illik iş günlərinin sayı 300 günə çatırdı. Bir buxar qazanına, 13 işçiyə, 1 növbəli iş rejiminə malik olan Pavel Tarusovun dəyirmanının illik istehsal gücü 16 min rubl təşkil edirdi [16, v.16-16 arxa].

Ağabala Quliyev unüyütmə işinin təkmilləşdirilməsi və bu sahədəki fəaliyyətinin genişləndirilməsi məqsədilə yorulmadan çalışırdı. Azərbaycanlı sahibkarın təkidli xahişlərindən sonra onun 2-ci fabrik sahəsində yerləşən un üyüdən və çəltik təmizləyən dəyirmanında 27 iyul 1901-ci ildə ilk buxar qazanının quraşdırılmasına icazə verilmişdi [19, v.5 arxa, 8 arxa, 13 arxa]. O, 1902-ci ilin fevralın 20-də Bakı Şəhər İdarəsinə təqdim etdiyi ərizəsində dəyirmanındakı neftlə istilik verilən buxar maşınlarının və qazanların elektrik mühərriki ilə əvəzlənməsinin vacibliyini əsaslandırırdı. Ona görə elektrik enerjisi almaq üçün A.Quliyev öz dəyirmanından Qara şəhərdə yerləşən Abşeron elektrik stansiyasına kimi yerin altı ilə kabelin çəkilməsinə razılığın verilməsini xahiş edirdi. Lakin onun bu xahişi rədd olundu [14].

Eyni zamanda sənədlərdən bəlli olur ki, artıq 1903-cü ilə doğru o, Zülfüqarovun dəyirmanını da icarəyə götürməklə, unüyütmə sahəsini bir növ öz inhisarına almağa müvəffəq olmuşdu. Belə ki, 1903-cü il üçün Bakı şəhərindəki fabriklərin təftişinə dair sənəddən bəlli olur ki, o vaxtlar Ağabala Quliyevin 36 nəfər işçiyə və 300 min rubl istehsal gücünə malik dəyirmanı ilə yanaşı, Zülfüqarovlardan icarəyə götürdüyü, 8 işçinin çalışdığı və 90 min rubl istehsal gücünə malik dəyirmanı da var idi. Müqayisə üçün qeyd edək ki, həmin ildə Bakı şəhərində fəaliyyət göstərən digər dəyirmanlardan Hacı Abbasqulu Rzayevin müəssisəsində 35 işçi çalışmaqla, onun illik istehsal gücü 146900 rubl təşkil edirdi; habelə H.Z.Tağıyevin dəyirmanı (keçmiş Persidskoe Tovarişestvo) o il işləmirdi; Məşədi Səttar Kərimov və K. dəyirmanı 8 işçiyə və 112668 rubl illik istehsal gücünə malik idi; İ.Skobelevlər

və S. dəyirmanı 40 işçiyə, illik 821325 rubl istehsal gücünə; Tarusovun dəyirmanı 10 işçiyə, illik 120 min rubl istehsal gücünə; "Qlaz qardaşları və Kretingen" dəyirmanı isə 32 işçiyə və illik 890 min rubl istehsal gücünə malik idi [22, 4 arxa-5 arxa].

Bəhs olunan dövrdə Ağabala Quliyevin çəltiktəmizləmə sahəsindəki fəaliyyəti heç də ürəkaçan deyildi. Çünki onun unüyütmə dəyirmanından çəltiktəmizləmə işi yenicə ayrılmışdı. Qeyd etmək lazımdır ki, Ağabala Quliyevin çəltiktəmizləyən dəyirmanı həmin vaxtlar Bakıda fəaliyyət göstərən dəyirmanların arasında işçilərin sayına və gəlirinə görə ən zəifi idi. Belə ki, onun çəltiyin təmizlənməsi ilə yanaşı, düyü yarması və düyü unu da istehsal edən dəyirmanının 1900-1901-ci illərdə orta illik istehsalının həcmi cəmi 16-22 min rubl olmuşdu. Bu barədə M.İsmayılov qeyd edir ki, belə vəziyyət, həmin illərdə Quliyevin bu dəyirmanında çəltiyin təmizlənməsi ilə yanaşı həm də unüyütmə işlərinin görülməsi ilə bağlı idi ki, burada əsas diqqət unüyütmə işinə verilirdi. Unüyütmə dəyirmanı çəltiktəmizləmədən ayrıldıqdan sonra düyü dəyirmanında məhsuldarlıq artmağa başladı [7, s.85-86].

1903-cü il üçün isə Ağabala Quliyevin 15 işçisi olan çəltiktəmizləyən dəyirmanının illik gəliri 25 min rubl təşkil etmişdi. Bir daha vurğulayardıq ki, o vaxtlar Ağabala Quliyevin çəltiktəmizləyən müəssisəsi unüyütmə sahəsindən yenicə ayrıldığı üçün işçilərin sayına və istehsal gücünə görə hələ də şəhərdəki digər müəssisələrdən geri qalırdı. Müqayisə üçün qeyd edək ki, o il Bakı şəhərində fəaliyyət göstərən çəltiktəmizləmə müəssisələrindən M. və Ə.Rəsulov qardaşları ticarət evi və A.M.Rəsulovların dəyirmanı 17 işçiyə, 1239000 rubl illik istehsal gücünə; "Qlaz qardaşları və Kretingen" dəyirmanı 35 işçiyə, 818600 rubl illik istehsal gücünə; Çiknaverov və K. dəyirmanı 15 işçiyə, 455 min rubl illik istehsal gücünə; Şteyner və Qrundlyand tərəfindən icarəyə götürülmüş Benenson dəyirmanı 26 işçiyə, 678 min rubl illik istehsal gücünə; Tovarişestva "Slon" dəyirmanı 38 işçiyə, 944857 rubl illik istehsal gücünə; Tumanyans qardaşları dəyirmanı 33 işçiyə, 650 min rubl illik istehsal gücünə malik idi [22, 4 arxa-5 arxa].

1904-cü ildə Ağabala Quliyevin dəyirmanında artıq 50 işçi çalışırdı. Həmin ildə onun dəyirmanının istehsal gücü 725649 rubl, işçilərin əmək haqqının illik məbləği isə 25467 rubla bərabər olmuşdu [20, v.5]. 1905-ci ildə isə Ağabala Quliyevin buxar mühərriki olan çəltiktəmizləyən dəyirmanında 37 işçi çalışmaqla illik dövriyyəsi 300 min rubl təşkil etmişdi [11].

Ağabala Quliyevin 1900-1905-ci illərdə çəltiktəmizləmə sahəsindəki fəaliyyəti ilə bağlı aşağıdakı cədvələ diqqət edək [7, s.85-86; 11; 22, v.4 arxa-5 arxa; 20, v.5]:

İllər	*İşçilərin sayı*	*Cəmi məhsuldarlıq*
1900-1901		16-22 min rubl
1903	15	25 min rubl
1904	50	725649 rubl
1905	37	300 min rubl

Bir daha qeyd edərdik ki, 1903-cü ilə dair rəqəmlərin nisbətən aşağı olması A.Quliyevin çəltiktəmizləmə sənayesində fəaliyyətə yenicə başlaması ilə əlaqədar idi. Artıq növbəti il kəskin artım müşahidə olunur ki, bu da müəssisənin tam gücü ilə işləməsindən irəli gəlirdi. Bizim ehtimalımızca, 1905-ci ildə başlanan inqilabi proseslər, habelə etnik qarşdurma iqtisadiyyatın digər sahələrində olduğu kimi, çəltiktəmizləmə sənayesində də tənəzzülə gətirib çıxartmışdı. Bu səbəbdən biz 1905-ci ilə aid statistik rəqəmlərdə Ağabala Quliyevin çəltiktəmizləmə müəssisəsində istər işçilərin sayında, istərsə də məhsuldarlığın həcmində kəskin düşüşün şahidi oluruq.

Bu arada qeyd edək ki, bəhs olunan dövrdə eyni zamanda unüyütmə sənayesində milli kapitalın mövqeyinin güclənməsi baş verir. 1905-ci ilə doğru Bakıda olan 24 un üyüdən və çəltiktəmizləyən müəssisədən 7-i azərbaycanlı sahibkarlara: H.Z.Tağıyev, A.B.Quliyev, Q.A.Rzayev, A.B.Əliyev, M.S.Kərimov, P.K.Babayev və M. və A.M.Rəsulov qardaşlarına məxsus idi. 1905-ci ildə sənayenin bu sahəsinin ümumi məhsulunun 25 faizindən çoxu məhz azərbaycanlı sahibkarlara məxsus idi [15, s.23, 31]. Müqayisə üçün qeyd edək ki, XIX əsrin 90-cı illərinin əvvəllərində Bakıda olan 12 unüyütmə-düyüarıtlama müəssisəsi arasında milli kapitalı Hacıməcid Həmid oğlu təmsil edirdisə [3, s.23], 1894-cü il üçün Bakı şəhərində fəaliyyət göstərən 11 dəyirmandan azərbaycanlı sahibkarlara –

Seyid Mirzə oğluna, Məmməd oğluna və Hacıməcid Həmid oğluna məxsus olan müəssisələr də var idi [12, s.155].

1905-ci ildə Ağabala Quliyevin buxarlı mühərriki olan unüyüdən dəyirmanında 38 işçi çalışırdı və onun illik dövriyyəsi 500 min rubl təşkil edirdi. Qeyd edək ki, həmin il Bakıda fəaliyyətdə olan 7 milli burjuaziyanın nümayəndəsinə məxsus unüyüdən və çəltiktəmizləyən dəyirmanların arasında Ağabala Quliyevin müəssisələri ən irilərindən hesab olunurdu. Bu müəssisələr işçilərin sayına və istehsal gücünə görə yalnız M. və A.Rəsulov qardaşlarının müəssisələrindən (40 işçisi və illik dövriyyəsi 690 min rubla bərabər idi) geri qalırdı. Bu sahədə bütövlükdə isə öncül mövqelər çarizm tərəfindən hərtərəfli himayə və qayğı ilə əhatə olunan S. və İ.Skobelev qardaşları (83 işçi, illik dövriyyəsi 1578985 rubl), "T. və Q.Qlaz qardaşları və Ş.Kretingen" (55 işçi, 1100000 rubl illik dövriyyə) kimi gəlmə kapıtala məxsus idi [11].

Mövcud un dəyirmanlarının ən böyüyü olan Skobelev dəyirmanı 1904-cü ildə 100-dən çox işçi ilə qurulmuşdu [8, s.167]. Böyük un üyüdən müəssisə olan "T. və Q. Qlaz qardaşları və S. Kretingen" cəmiyyətinin dəyirmanı 1885-ci ildə, cəmiyyət isə 1889-cu ilin sonunda qurulmuşdu. "Qlaz və Kretingen" şirkətinə 1885-ci ildə qurulmuş böyük bir çəltiktəmizləmə dəyirmanı da məxsus idi. 1888-1902-ci illərdə bu dəyirman 5,5 milyon pud çəltik istehsal etmişdi [8, s.167].

1907-ci ildə Ağabala Quliyevin Vağzal küçəsində yerləşən dəyirmanında 57, Stanislavski küçəsindəki dəyirmanında isə 65 işçi çalışırdı [17]. 1908-ci ildə Ağabala Quliyevin 30 işçisi olan un üyüdən dəyirmanında 1266900 rublluq 651440 pud buğda unu, çəltiktəmizləyən dəyirmanında isə 2083625 rublluq 1208750 pud çəltik istehsal olunmuşdu [10, s.187-188].

Həmin ildə Bakıda fəaliyyət göstərən un üyüdən və çəltiktəmizləyən dəyirmandan 4-ü milli burjuaziyanın nümayəndələrinə məxsus idi. Ağabala Quliyevin müəssisələri işçilərin sayı və istehsal gücünə görə yalnız S. və İ.Skobelev qardaşları (125 işçi, illik dövriyyəsi 3141600 rubl), habelə "Qlaz və Kretingen" cəmiyyətindən (sözügedən ildə bu şirkətin 50 işçisi olan un üyüdən dəyirmanında 1250 min rublluq 1300 min pud buğda unu, 87 min rublluq 100 min pud çovdar unu, 50 min rublluq 150 min pud kəpək, 33 min rublluq 17 min pud taxıl tullantısı, 45 işçisi olan çəltiktəmizləyən dəyirmanında 1283675 rublluq 900 min pud çəltik istehsal olunmuşdu) müəssisələrindən geri qalırdı [10, s.187-188]. Skobelev qardaşlarının dəyirmanının orta illik istehsal həcmi 1908-ci ildə 3 milyon rublu ötmüşdü. "T. və Q.Qlaz qardaşları və S.Kretingen" Cəmiyyətinin dəyirmanında 1908-ci ildə 50-70 işçi çalışmaqla, onun istehsal həcmi 1,420 min rubla çatmışdı. Həmin ildə onun çəltiktəmizləmə dəyirmanında 900 min pud çəltik istehsal olunmuşdu [8, s.167].

1910-cu il üçün statistik məlumatlarda göstərilir ki, Ağabala Quliyevin Bakıdakı buxarlı qazanı olan dəyirmanında 1150 min pud buğda üyüdülmüşdü. Onun dəyirmanı həmin ildə Bakıda fəaliyyət göstərən 16 unüyütmə və çəltiktəmizləmə dəyirmanının içərisində istehsal gücünə görə yalnız 3 869160 pud buğda üyüdülən Skobelev qardaşlarının müəssisəsindən geri qalırdı [18, s.658-659]. 1911-ci ildə isə artıq onun Bakıdakı dəyirmanlarında 120 işçi çalışırdı [24, s.155-156].

1912-ci ildə Ağabala Quliyevin dəyirmanında buxar qazanının quraşdırılması onun istehsalına ciddi təsir göstərir. Belə ki, 1912-ci il üçün Ağabala Quliyevin Molokan küçəsi 39 ünvanda yerləşən unüyüdən və çəltiktəmizləyən zavodunda 915 at gücündə buxarlı mühərrik, 30 işçisi olmaqla illik istehsal gücü 4200000 rubla bərabər idi. Həmin vaxtı onun Hacı Rzaqulu Babayevdən icarəyə götürdüyü dəyirmanında isə 8 işçi, 20 at gücündə bir buxar mühərriki olmaqla, illik istehsal gücü 11 min rubla bərabər idi. Qeyd edək ki, Ağabala Quliyevin dəyirmanı istər işçilərin sayına, istərsə də istehsal gücünə görə həmin vaxtı Bakı quberniyasında fəaliyyət göstərən dəyirmanlardan ən böyüyü idi. Müqayisə üçün göstərək ki, ən iri un istehsalçılarından hesab olunan "Qlaz və Kretingen" firmasının 120 fəhləsi, 500 at gücündə iki buxar mühərriki olan dəyirmanının istehsal gücü 3 milyon rubla, Skobelev qardaşlarının 126 nəfərin işlədiyi, 200 at gücündə cəmi bir buxar mühərrikinin olduğu dəyirmanının istehsal gücü isə 2 milyon rubla bərabər idi [23, s.463, №44-48 (D)].

1914-cü ildə Bakıdakı 24 unüyütmə və düyüarıtlama müəssisəsindən 8-i azərbaycanlılara məxsus idi. Ağabala Quliyev 1915-ci ildə öz müəssisələrini "Ağabala Quliyevin unüyütmə və düyüarıtlama dəyirmanlarının Qafqaz səhmdar cəmiyyətinə" çevirdi. Onun müəssisələri ən yeni texnologiya və ən müasir maşınlarla təchiz edilmişdi [3, s.23].

Ağabala Quliyevin dəyirmanının iş rejimi qəbul olunmuş daxili qaydalarla tənzimlənirdi. Qaydalara görə dəyirman il ərzində işin yorğunluğundan asılı olaraq bir, iki, yaxud üç növbəli işləyə bilərdi. Üç növbəli iş rejimi zamanı birinci növbə səhər saat 6-dan gündüz saat 2-yə kimi, ikinci növbə gündüz saat 2-dən axşam saat 10-a kimi, üçüncü növbə isə axşam saat 10-dan səhər saat 6-ya kimi işləyirdi. İki növbəli iş rejimi zamanı birinci növbə səhər saat 6-dan axşam saat 6-ya kimi, ikinci növbə isə axşam saat 6-dan səhər saat 6-ya kimi işləyirdi. Bir növbəli iş rejimi zamanı isə iş saatları səhər saat 6-dan axşam saat 6-ya kimi uzanırdı. Nahar üçün bir saat, gündüz saat 12-dən 1-ə kimi vaxt ayrılırdı. Bayramqabağı günlər qısa iş günü hesab olunmaqla iş vaxtı bir saat tez, saat 5-də başa çatırdı. Yeni il qabağı isə iş gündüz saat 12-də qurtarırdı [13, v.19-19 arxa].

Ağabala Quliyevin dəyirmanında iki və üç növbəli iş rejimi zamanı aşağıdakı günlər qeyri-iş günləri hesab olunurdu: 6 yanvar (İsa Məsihin xalqa zühuru), pasxa həftəsinin bazar, bazar ertəsi və çərşənbə axşamı günləri, müqəddəs üç üqnum (troitsa) günü, 25 və 26 dekabr (İsa Məsihin mövludu), Novruz bayramı (bir gün), Ramazan bayramı (bir gün), Məhərrəmlikdə bir gün və Səfər ayında bir gün olmaqla il ərzində 11 gün qeyri iş günləri idi. Qeyd etmək lazımdır ki, əgər üçnövbəli iş rejimi zamanı dəyirman bazar günü də işləyirdisə, iki növbəli iş rejimi zamanı dəyirmanda iş şənbə günü axşam saat 6-dan bazar günü axşam saat 6-ya kimi dayandırılırdı.

Bir növbəli iş rejimi zamanı isə qeyri-iş günlərinin sayı daha çox idi: bütün bazar günlərindən əlavə 1 yanvar (yeni il), 6 yanvar, 2 fevral, 25 mart (müqəddəs Məryəm anaya xoş müjdə bayramı), 6 avqust (İsa Məsihin başqalaşması; preobrajenie qospodne), 15 avqust (müqəddəs Məryəm ananın vəfatı), 8 sentyabr (müqəddəs Məryəm ananın mövludu), 14 sentyabr (Tanrı xaçının ucaldılması), 21 noyabr (müqəddəs Məryəm ananın məbədə gətirilməsi), 25 və 26 dekabr (İsa Məsihin mövludu), pasxa həftəsinin bazar ertəsi və çərşənbə axşamı günləri, "çilə həftəsinin" cümə və şənbə günləri, İsa Məsihin göyə ucalması günü, müqəddəs ruhun enməsi bayramının ikinci günü, Novruz bayramı (bir gün), Ramazan bayramı (bir gün), Məhərrəmlikdə bir gün və Səfər ayında bir gün [13, v.20-20 arxa].

Başlanan Birinci Dünya Müharibəsi ölkənin iqtisadi mexanizmini müdafiə ehtiyaclarına uyğunlaşdırmaq zərurətini diktə edirdi. Müharibə illərində hökumət iqtisadiyyatın dövlət tənzimlənməsinin hüquqi rejimini təmin etdi, sənaye, ticarət və bank sahəsində fərdi sahibkarların hüquqlarını məhdudlaşdırdı, bir sıra müəssisələri hərbi təyinatlı məhsullar istehsalına verdi. Bu siyasət ölkənin bütün bölgələrinə, o cümlədən Qafqaza şamil edilirdi. Əgər bütün Rusiyada cəbhəyə xidmət edən müəssisələrdə çalışan işçilər bütün işçilərin 73,7%-ni təşkil edirdisə, Qafqazdakı işçilərin 78,2%-i hərbiləşdirilmiş müəssisələrdə cəmləşmişdi [6, s.40].

1916-1917-ci illərdə Ağabala Quliyevin üç buxar qazanı, bir buxar maşını və digər avadanlıqlarla təchiz edilmiş dəyirmanlarında çalışan işçilərin sayının 60-65 nəfərə çatdığı qeyd olunur. Belə vəziyyət müharibə illərində Rusiyanın daxili quberniyalarında düyüyə tələbatın artması ilə izah olunurdu ki, nəticədə dəyirman öz istehsalını genişləndirmiş və istehsalının orta illik həcmini artırmışdı [7, s.85-86].

Ağabala Quliyevin unüyütmə dəyirmanının çəkisini müəyyən etmək üçün XX əsrin əvvəllərində bu sahədə ümumilikdə Bakıda olan duruma diqqət edək: 1900-1903-cü illərdə Bakıda 395 işçi və 5695 min rubl həcmində məhsul istehsal edən 15 unüyütmə və çəltiktəmizləmə dəyirmanı var idisə, 1904-1907-ci illərdə 515 işçisi, 8881 min istehsal gücü olan 16 dəyirman, 1908-1910-cu illərdə 443 işçisi, 13 milyon rubl istehsal gücü olan 10 dəyirman var idi. 1911-1913 və 1914-1917-ci illərdə dəyirmanların sayı 9-a, işçilərin sayı isə 538 və 623-ə enmişdi [8, s.167-168]. Bu dəyirmanların 1913-cü il üçün illik istehsal həcmi 13 milyon rubl təşkil etmişdi [4, s.142].

Nəticə. Aparılmış tədqiqata yekun vuraraq qeyd etmək lazımdır ki, sənayenin inkişafı, şəhərlərin genişlənməsi, şəhər əhalisinin və onun tələbatının sürətlə artması kənd təsərrüfatının və Azərbaycan kəndinin kommersiya məhsullarının kəskin artması kimi yeni səciyyəvi xüsusiyyətlərinin yaranmasını doğurdu. Bu da öz növbəsində XIX əsrin sonlarından etibarən unüyütmə sənayesinin inkişafına, bu sahədə Bakı şəhərində getdikcə milli kapitalın mövqeyinin güclənməsinə və XX əsrin əvvəllərindən etibarən Ağabala Quliyevin timsalında milli kapitalın inhisarına keçməsinə təkan verdi. Gətirilən faktlardan da bəlli olur ki, Azərbaycanlı sahibkarın fəaliyyəti məqsədyönlülüyü və çalışqanlığı ilə seçilirdi. Ağabala Quliyevin dəyirmanları qısa müddət ərzində Bakıda ikinci dərəcəli müəssisədən aparıcı müəssisəyə çevrilməyə müvəffəq olmuşdu.

ƏDƏBİYYAT

1. Həbiboğlu V. Keşlə və keşləlilər. Bakı, ”Örnək”, 1995, 260 s.
2. Nağıyeva G. Milyonçu-xeyriyyəçi Ağabala Quliyev haqqında. - https://banco.az/az/news/milyoncu-xeyriyyeci-agabala-quliyev-haqqinda [08.04.2024].
3. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı, 1998, 187 s.
4. Vəliyeva X.T XIX əsrin axırları – XX əsrin əvvəllərində Şimali Azərbaycanın yeyinti sənayesinin tarixi. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiya. AMEA, A.A. Bakıxanov ad. Tarix İn-tu. -B., 2013, 198 s.
5. Агаев Ф. Из истории мукомольной и рисоочистительной промышленности Баку. - https://azerhistory.com/?p=30953 [08.04.2024].
6. Дулаева Зарифа, Мамедов Мамед. Баку в годы Первой мировой войны // Azərbaycan Birinci Dünya Müharibəsi dövründə. Elmi məqalələr toplusu. Bakı, «Ziya», 2014 s. 32-57
7. Исмаилов М.А. Промышленность Баку в начале XX века. Баку, Издательство „Элм”, 1976. 152 с.
8. Мамедов М. Развитие предпринимательства в Азербайджане II половине XIX – начале XX вв. // Tarix və mədəniyyət. Faktlar və dəyərlər. Akademik N.Vəlixanlının yubileyinə həsr olunmuş məqalələr toplusu. Bakı: “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020, s.160-175.
9. Мукомольное дело в России: Настол. справ. кн. для мукомолов, мельнич.-строит. фирм, машиностроит. з-дов... с рядом ст. о положении мукомол. дела в России, большим стат. отд.: мельницы всей России исправ. отд., извлеч из законодательства по мукомол. делу. Одесса: Индустрия, 1909. 592, XL с.
10. Обработка пищевых и вкусных веществ // Ежегодник. Баку и его районы. Адресная и справочная книга. 1909 год. Издание М.С. Шапсовича. отдел 2-й. Баку., типография А.Н. Тараева и Л.Д. Мирзаянца, 1910, с.187-190.
11. Обработка предметов потребления. Баку. Промышленность и торговля г. // Баку и его района. Ежегодник с адрес-календарем. 1907 год. Издание М.С. Шапсовича. Часть 2-я, отдел 1-й. Баку: типография А.Н. Тараева и Л.Д. Мирзаянца, 1907, с.44-45.
12. Орлов П.А. Указатель фабрик и заводов окраин России: царства Польского, Кавказа, Сибири и среднеазиатских владений. Материалы для фабрично-заводской статистики. Составил по официальным сведениям Департамента Торговли и Мануфактур П.А.Орлов. Спб.: типография братьев Пантелеевых, 1895, 261 с.
13. Правила внутреннего распорядка паровой мельнице Агабалы Гулиева в г. Баку. 30-го июля 1890 года. // ARDTA, fond, 509, siyahı 1, iş 56, v. 19-21 arxa.
14. Прошение Бакинского купца Агабала Гулиева в Бакинскую Городскую Управу, от 20-го февраля 1902 года. // ARDTA, f. 389, siy. 3, iş 2343, v. 1.
15. Сеидзаде Д.Б. Из истории Азербайджанской буржуазии в начале 20-го века. Баку, Элм, 1978, 146 с.
16. Список промышленных заведений Бакинской губернии. 1902 год. // ARDTA, f. 509, siy. 1 iş 16, v. 1-21.
17. Список промышленных предприятий в районе Бакинского градоначальства. 1907 год. // ARDTA, f. 509, siy. 1, iş 142, v. 14-14 arxa.
18. Список фабрик и заводов России. 1910 год. По официальным данным фабричного-податного и горного отделом. Составлено редакцией «торгово-промышленной газеты» и «Вестника финансов». Москва-Спб., 1910, 1034 с.
19. Список фабрично-заводских предприятий, которым разрешено установка паровых котлов. 1902 год. // ARDTA, f. 509, siy. 1 iş 65, v. 1-20 arxa.
20. Статистические сведения к отчету инспекции за 1904 год с указанием количеств рабочих, производительности рабочих, заработной платы и жалоб рабочих. 1904 год. // ARDTA, f. 509, siy. 1, iş 115, v. 1-19 arxa
21. Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX - начале XX века. Баку, Элм, 2002. 530 стр.

22. Фабричная инспекция Бакинской губернии. 1903-1904 гг. // ARDTA, f.509, siy.1, iş 106, v.1-12.
23. Фабрично-заводские предприятия Российской империи (исключая Финляндию). Изд. 2-е. составлено под руководством редакционнаго комитета, состоящаго из членов Совета съездов представителей промышленности и торговли ; ред. Ф. А. Шобер ; Совет съездов представителей промышленности и торговли. Петроград, типография Н.Я.Стойковой, 1914. 1612 с.
24. Шапсович М.С. Весь Кавказ. 1-й год издания: промышленность, торговля и сельское хозяйство Северного Кавказа и Закавказья. Составил и издал М.С.Шапсович. Баку, типография Бакинского полицмейстерства, 1914, 894 с.

ВАФА АЛИЕВА
Диссертант отдела «Истории Северного Азербайджана XIX-начала XX веков» Института Истории и Этнологии имени А.Бакиханова НАНА

ДЕЯТЕЛЬНОСТЬ АГАБАЛЫ ГУЛИЕВА В МУКОМОЛЬНОЙ ПРОМЫШЛЕННОСТИ БАКУ

В представленной статье на основе архивных материалов и существующей литературы рассматриваются основные аспекты предпринимательской деятельности видного представителя азербайджанской буржуазии А. Гулиева, сыгравшего существенную роль в становлении мукомольной промышленности в Баку. Особо подчеркивается, что во многом благодаря предприимчивости, врожденных деловых способностей и практической смекалки А.Гулиев добился впечатляющих успехов в своих промышленных начинаниях. Из приведенных фактов становится очевидно, что деятельность азербайджанского предпринимателя отличалась целеустремленностью и трудолюбием. Мельницам Агабалы Гулиева за короткий срок удалось завоевать ведущие позиции в мукомольной промышленности Баку.

Ключевые слова: Агабала Гулиев, Азербайджанское предпринимательство, Бакинская мукомольная промышленность, рисоочистительные предприятия, мельницы.

VAFA ALIYEVA
Dissertation candidate of the department "History of Northern Azerbaijan of the 19th-early 20th centuries" of the Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS

AGABALA GULIYEV'S ACTIVITIES IN THE FLOUR MILLING INDUSTRY OF BAKU

The article presents the main aspects of the entrepreneurial activity of the prominent representtative of the Azerbaijani bourgeoisie A. Guliyev, who played a significant role in the development of the flour-milling industry in Baku, based on archival materials and existing literature. It is especially emphasized that, largely due to his enterprise, innate business skills and practical ingenuity, A.Guliyev achieved impressive success in his industrial endeavors. From the facts presented, it becomes obvious that the activity of the Azerbaijani entrepreneur was distinguished by purposefulness and hard work. Agabala Guliyev's mills managed to gain leading positions in the flour-milling industry of Baku in a short period of time.

Keywords: Agabala Guliyev, Azerbaijani entrepreneurship, Baku flour milling industry, rice cleaning plants, mills.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Ramil Niftəliyev, t.e.d. Qabil Əliyev.